# QUDYALÇAYIN MÜASİR İXTİOFAUNASI

**Çingiz Məmmədov, Müşviq Bahəddinov, Məxmər Qarayeva**

*Bakı Dövlət Universiteti, m_chingiz@yahoo.com*

Qudyalçayın bioekologiyası, burada yaşayan canlı orqanizmlərin kəmiyyət və keyfiyyət göstəriciləri, o cümlədən balıq növləri haqqında məlumatlar müxtəlif illərdə aparılmış tədqiqat işlərinin materiallarında təsvir olunmuşdur [Əbdürrəhmanov, 1965; Ağamalıyev və b., 2010; Quliyev və b., 2011]. Qeyd etmək lazımdır ki, ədəbiyyatda məlum materiallar əsasən XX əsrin ikinci yarısında və XXI əsrin əvvəllərində aparılmış tədqiqat işlərinin nəticələrini təmsil edir. Aparılmış elmi tədqiqat işlərinin əsas məqsədi Qudyalçayın dəyişikliyə uğramış ekoloji şəraitində müasir ixtiofaunasının və onun bioloji resurslarının vəziyyətinin araşdırılmasından ibarətdir.

Qudyalçayın müasir ixtiofaunasının öyrənilməsi ilə əlaqədar tədqiqat işləri 2021-2022-ci illərdə çayın aşağı axarının müxtəlif məntəqələrində həyata keçirilmişdir. İxtiofauna haqqında məlumat müxtəlif ov alətlərindən (sürütmə tor, qurma torlar və konusvari venterlər) istifadə edilməklə aparılan ovlamanın nəticələrinə əsasən müəyyənləşdirilmişdir. Körpə balıqlar 4%-li formalin məhlulunda fiksə olunmuş və müvafiq metodiki vəsaitlərdən [Правдин, 1966; Кошелев, 1984] istifadə olunmaqla təyin edilmişdir. Balıq ovu üçün müxtəlif ov alətlərindən istifadə edilməsi tədqiq olunan su hövzəsində yaşayan balıqların növ tərkibi haqqında daha tam məlumat almağa imkan vermişdir.

Qudyalçayın dənizlə birləşən hissəsində körpə balıqların ovlanması üçün passiv ov alətlərindən – konusvari ixtioplankton torlardan (kiçik və böyük) istifadə edilmişdir. Kiçik ölçülü konusvari ixtioplankton torun girişinin diametri 0,2 $m^2$, böyük ölçülü ixtioplankton torun girişinin diametri isə 1,0 $m^2$ olmuşdur. Konusvari ixtioplankton torlarla nümunələrin toplanması standart metodika ilə aparılmış, miqrasiya edən körpə balıqların miqdarı aşağıdakı formula əsasən hesablanmışdır:

$$C_{1000} = N * 1000/Q$$

$$Q = S * V * t$$

Burada: $C_{1000}$ – 1000 $m^3$ su həcmində olan körpə balıqların sayı, ədəd; N – nümunədə körpə balıqların sayı, ədəd; Q – konusvari ixtioplankton tordan keçən suyun həcmi, $m^3$; S – konusvari ixtioplankton torun girişinin sahəsi, $m^2$; V – konusvari ixtioplankton torun girişində suyun axın sürəti; t – konusvari ixtioplankton torla aparılan ovlama müddəti, san.

Aparılmış tədqiqatların nəticələri göstərmişdir ki, Qudyalçayda həm yerli balıqlara, həm də Xəzərin keçici balıqlarına rast gəlinir. Qudyalçay balıqçılıq təsərrüfatında böyük əhəmiyyətə malik olmasa da, növ müxtəlifliyi baxımından zəngin çaylar sırasına daxildir. Çayda yayılmış balıq növlərini 3 ekoloji qrupa – şit su, keçici və yarımkeçici qruplara aid etmək olar. Qudyalçayın ixtiofaunasına 32 növ və yarımnöv daxildir. Hövzədə yayılmasına görə 10 növ çayın mənsəb hissəsində, 13 növ aşağı, 6 növ aşağı və orta, 1 növ yalnız yuxarı axarlarda, 3 növ isə bütün çay boyu yayılmışdır. Yayılmış növlərin 6-sı nadir* rast gəlinən, 19-u azsaylı**, 5-i ortasaylı***, 2-si isə çoxsaylı**** balıqlardandır (cədvəl).

Çayın balıqçılıq təsərrüfatında əhəmiyyətinin olmamasına baxmayaraq, burada Orta Xəzərin bir sıra balıq növləri (Xəzər şirbiti, qarasol, qızılüzgəc, tikanbalığı, şəmayı, sıf və s.) çoxdur. Çayda Terek şirbitinə daha tez-tez rast gəlinir.

**Cədvəl.** Qudyalçayın ixtiofaunası

| | Balıq növləri | Yayıldığı çayın axarı | | | | |
|---|---|---|---|---|---|---|
| | | Yuxarı | Aşağı və orta | Aşağı | Mənsəb | Çay boyu |
| 1 | Çay qızılxallısı *(Salmo fario)** | + | - | - | - | - |
| 2 | Qafqaz çay xulu (*Neogobius platyrostris constructor*)** | - | - | - | - | + |
| 3 | Şərq qıjovçusu *(Alburnoides eichwaldi*)*** | - | - | - | - | + |
| 4 | Xəzər mərmər xulu (*Proterorhinus marmoratus*)** | - | - | - | + | - |
| 5 | Xəzər qumluq xulu (*Neogobius fluviatilis pallasi*)** | - | - | - | + | - |
| 6 | Xəzər aterini (*Atherina boyeri caspia*)** | - | - | - | + | - |
| 7 | Xəzər iynəbalığı (*Syngnathus nigrolineatus caspius*)** | - | - | - | + | - |
| 8 | Çay xanısı (*Perca fluviatilis*)** | - | - | - | + | |
| 9 | Kiçik cənub tikanbalığı (*Pungitius platygaster*)** | - | - | - | + | - |
| 10 | Adi naxa (*Silurus glanis*)* | - | - | - | + | - |
| 11 | Qızılı kefal (*Liza aurata*)*** | - | - | - | + | - |
| 12 | Üçiynəli tikanbalığı (*Gasterosteus aculeatus*)**** | - | - | - | + | - |
| 13 | Xəzər iribaş xulu (*Neogobius (prnticola) gorlap*)** | - | - | + | - | - |
| 14 | Şimali Qafqaz çılpaqcası (*Barbatula merga*)** | - | - | + | - | - |
| 15 | Adi sıf (*Stizostedion lucioperca*)** | - | - | + | - | - |
| 16 | Adi çəki (C*yprinus carpio*)** | - | - | + | - | - |
| 17 | Xəzər qarasolu (*Vimba vimba persa*)** | - | - | + | - | - |
| 18 | Amur enlibaşı (*Pseudorasbora parva*)** | - | - | + | - | - |
| 19 | Qırmızıdodaq həşəm (*Aspius aspius taeniatus*)** | - | - | + | - | - |
| 20 | Adi qızılüzgəc (*Scardinius erythrophthalms*)** | - | - | + | - | - |
| 21 | Xəzər külməsi (*Rutilus rutilus caspicus*)** | - | - | + | - | - |
| 22 | Adi durnabalığı (*Esox lucius*)** | - | - | + | - | - |
| 23 | Xəzər şəmayısı (*Chalcalburnus chalcoides*)** | - | - | + | - | - |
| 24 | Şərq çapağı (*Abramis brama orientalis*)* | - | - | + | - | - |
| 25 | Cənubi Qafqaz yastıqarını (*Blicca bjoerkna transcaucasica*)* | - | - | + | - | - |
| 26 | Qızılı şirbit (zərdəpər) (*Luciobarbus capito*)* | - | - | + | - | - |
| 27 | Adi kütüm (*Rutilus frisii kutum*)* | - | - | + | - | - |
| 28 | Adi qambuziya (*Gambusia affinis*)*** | - | - | + | - | - |
| 29 | Terek şirbiti (*Luciobarbus ciscaucasicus*)**** | - | - | | - | + |
| 30 | Qafqaz enlibaşı (*Leuciscus cephalus orientalis*)** | - | + | | - | - |
| 31 | Qafqaz gümüşcəsi (*Alburnus hohenackeri*)** | - | + | | - | - |
| 32 | Gümüşü dabanbalığı (*Carassius gibelio*)** | - | + | | - | - |